***Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri ölkəmizin müasir tarixində, həm də beynəlxalq münasibətlər sistemində mühüm dönüş nöqtəsi kimi yadda qaldı. Vaşinqtonda keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan tarixi sənədlər və aparılan danışıqlar Azərbaycan diplomatiyasının çoxşaxəli uğurlarını bir daha nümayiş etdirdi. Bu səfər təkcə ikitərəfli münasibətlərin yeni strateji mərhələyə keçidi deyil, eyni zamanda, Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi istiqamətində mühüm institusional addımların atıldığı bir hadisə oldu. Prezident İlham Əliyevin siyasi iradəsi, strateji düşüncə tərzi və qətiyyətli liderliyi ilə Azərbaycan tarixində misli görünməmiş uğurlara imza atıldı - hərbi qələbələr diplomatik zəfərlərlə möhkəmləndirildi.***

# HƏRBİ ZƏFƏRDƏN DAYANIQLI SÜLHƏ:

# PREZİDENT İLHAM ƏLİYEVİN ABŞ-a SƏFƏRİNİN TARİXİ VƏ SİYASİ ÇƏKİSİ



## *Azərbaycanın regiondan qlobal miqyasadək aparan diplomatik qələbəsi*

Vaşinqton səfərinə gedən yol asan olmayıb. Bayden-Blinken administrasiyası və Fransa prezidenti Emmanuel Makron uzun müddət Azərbaycan-Ermənistan arasında normallaşma prosesinə öz siyasi gündəliklərini sırımağa çalışırdılar. Çirkin iftiralar, siyasi-diplomatik təxribatlar, birtərəfli ittihamlar və təzyiq mexanizmləri işə salınmışdı. Lakin Prezident İlham Əliyevin prinsipial mövqeyi və milli maraqlar uğrunda qətiyyətli siyasəti bu cəhdlərin qarşısını aldı. Nəticədə, həmin dairələrin planları iflasa uğradı və Azərbaycan regional diplomatiyanın qaydalarını diktə edən tərəf olduğunu sübut etdi.

Səfərin əsas mahiyyətini iki paralel strateji xətt təşkil edir. *Birinci xətt* - Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlığa yüksəlməsi və bu tərəfdaşlığın gələcək onilliklər üçün institusional əsasının qoyulmasıdır. Prezidentlər İlham Əliyev və Donald Tramp tərəfindən imzalanan Anlaşma Memorandumu Strateji Tərəfdaşlıq Xartiyasına aparan Strateji İşçi Qrupunun yaradılmasını rəsmiləşdirdi. Hələ ötən il Şuşada keçirilən Qlobal Media Forumunda Prezident İlham Əliyev ABŞ seçkiləri ilə bağlı sualı cavablandırarkən o vaxtkı namizəd Donald Tramp haqqında müsbət rəyini diplomatik üslubda ifadə etmiş, bununla da Vaşinqtonla münasibətlərdə yeni mərhələnin siqnalını vermişdi. Sonrakı çıxışlarında cənab İlham Əliyev D.Trampın prezidentliyi dövründə ABŞ-ın yeni müharibələrə başlamamasını, eləcə də ailə və ənənəvi dəyərlərə bağlılığını ayrıca qeyd etmişdi. Donald Trampın prezident seçilməsindən sonra iki lider arasında telefon danışıqları və məktub mübadilələri oldu, əməkdaşlıq üçün yeni pəncərə açıldı. Bu kontekstdə Vaşinqtonda imzalanmış Anlaşma Memorandumu təkcə ikitərəfli gündəliyi genişləndirmədi, həm də həmin siyasi kapitalı institusional axara saldı. Bu əməkdaşlıq regional bağlantılar və enerji təhlükəsizliyindən başlayaraq, rəqəmsal infrastruktur, süni intellekt, müdafiə və təhlükəsizlik sahələrinə qədər geniş spektri əhatə edir. ABŞ Prezidentinin "Azadlığa Dəstək Aktına 907-ci düzəliş"in tətbiqini dayandırması isə uzun illər ikitərəfli münasibətlərdə mövcud olan siyasi baryeri aradan qaldıraraq yeni mərhələyə simvolik körpü saldı. Bunun tarixi fonu vacibdir: 1992-ci ildə qəbul edilən bu düzəliş Azərbaycanın guya ermənilərə "blokada" tətbiq etməsi iddiasına söykənirdi. Bayden-Blinken administrasiyası Əfqanıstan əməliyyatlarından dərhal sonra həmin düzəlişi yenidən aktiv təzyiq alətinə çevirmək istədi. Vaşinqton səfərində imzalanan Sərəncam bu yükü aradan qaldıraraq siyasi-rəmzi baryeri qəti surətdə yox etdi və yeni strateji səhifəni rəsmiləşdirdi.

*İkinci xətt* - Azərbaycan-Ermənistan sülh gündəliyinin Vaşinqton formatında hüquqi-institusional çərçivəyə salınmasıdır. ABŞ Prezidentinin vasitəçiliyi və şahidliyi ilə imzalanan Birgə Bəyannamə bir tərəfdən, yekun sülh sazişinə gedən yolda mühüm mərhələ, digər tərəfdən isə Azərbaycanın bütün əsas şərtlərinin Ermənistan tərəfindən qəbul edildiyini təsdiqləyən sənəddir: ATƏT-in Minsk qrupunun ləğvi üçün birgə müraciət, Ermənistan konstitusiyasından ərazi iddialarının çıxarılması zərurətinin tanınması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidin təmin olunması. Bu, Prezident İlham Əliyevin həm hərbi, həm də diplomatik müstəvidə əldə etdiyi qələbələrin məntiqi davamıdır.

Antiterror tədbirlərindən sonra Bayden-Blinken administrasiyasının məqsədi Azərbaycanın beynəlxalq imicini zədələmək, ölkəmizi siyasi təcrid vəziyyətinə salmaq idi. Vaşinqtonda bəzi dairələr rəsmi nümayəndə heyətlərinin səfərlərini təxirə salmaqla yanaşı, sanksiya tətbiqi kimi təzyiq vasitələrini də gündəmə gətirmişdilər. Lakin Prezident İlham Əliyev milli maraqların müdafiəsində geri addım atmadı, əksinə, siyasi iradə və dövlətçilik ləyaqəti nümayiş etdirərək bütün bu planları iflasa uğratdı. Bu, Azərbaycan diplomatiyasının prinsipiallığının və dövlət başçısının şəxsi liderlik keyfiyyətlərinin bariz təzahürü idi. Beləliklə, hərbi zəfərlərdən sonra diplomatik müstəvidə möhkəmləndirmə mərhələsi başladı və Vaşinqton səfəri bu prosesin ən yüksək - ekstremum nöqtəsinə çevrildi.

Prezident İlham Əliyevin Vaşinqton səfərinin ən mühüm nəticələrindən biri Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni mərhələyə - strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsidir. Bu, təkcə iki ölkə üçün deyil, həm də regionun gələcək sabitliyi üçün fundamental əhəmiyyət daşıyır. Dünyanın bir nömrəli gücü ilə strateji tərəfdaşlıq əldə etmək istənilən dövlət üçün nadir fürsətdir. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu fürsəti reallığa çevirdi və beləliklə, beynəlxalq siyasətdə manevr imkanlarını genişləndirdi, təhlükəsizlik, enerji və texnologiya sahələrində uzunmüddətli əməkdaşlıq üçün möhkəm baza yaratdı. Ağ Evdə imzalanmış "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair Xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında" Anlaşma Memorandumu bu dönüşün hüquqi və institusional təməlini qoydu. Memoranduma əsasən yaradılan Strateji İşçi Qrupu altı ay ərzində Xartiya layihəsini hazırlamalı və əməkdaşlığın prioritetlərini müəyyənləşdirməlidir. Bu prioritetlər üç əsas istiqaməti əhatə edir: *Regional bağlantılar və enerji təhlükəsizliyi - enerji resurslarının ixracı, ticarət və tranzit dəhlizlərinin inkişafı; İqtisadi sərmayə və rəqəmsal inkişaf - ABŞ texnologiyalarının və sərmayəsinin cəlbi, süni intellekt və rəqəmsal infrastrukturun qurulması; Təhlükəsizlik və müdafiə əməkdaşlığı - silah satışından başlayaraq terrorizmə qarşı birgə mübarizəyə qədər geniş spektr.*

Səfər çərçivəsində Azərbaycan Prezidentinin iştirakı ilə ABŞ Prezidenti tərəfindən imzalanan mühüm sənəd "Azadlığa Dəstək Aktına 907-ci düzəliş"in tətbiqinin dayandırılması barədə Sərəncam oldu. Bu, uzun illər ikitərəfli münasibətlərdə mövcud olan siyasi baryeri aradan qaldırdı və Vaşinqton görüşünün rəmzi məna daşıyan əsas uğurlarından birinə çevrildi. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu addım Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, ABŞ-la münasibətlərdə etimad mühitinin güclənməsinin göstəricisidir.

İkitərəfli əməkdaşlıq xəttində vacib iqtisadi addımlar da atıldı. SOCAR və "ExxonMobil" arasında imzalanan əməkdaşlıq memorandumu neft-qaz sektorunda yeni imkanlar açmaqla yanaşı, texnologiya transferi və birgə layihələrin reallaşdırılması üçün geniş perspektivlər yaradır. Bu sənəd ABŞ texnologiyasının və sərmayəsinin Azərbaycana gəlməsinin real nümunəsidir.

> **Vaşinqton səfəri qələbə narrativinin sülh narrativi ilə tamamlandığı, Azərbaycanın regional güc olaraq statusunu daha da möhkəmləndirdiyi mərhələdir. İmzalanmış sənədlər təkcə bugünün deyil, gələcək onilliklərin təhlükəsizliyini, iqtisadi rifahını və kommunikasiya arxitekturasını təmin edən strateji çərçivədir. Bu çərçivənin mərkəzində isə Azərbaycanın milli maraqlarını ardıcıl müdafiə edən, hərbi-diplomatik qələbələri dayanıqlı sülhə çevirən Prezident İlham Əliyevin liderlik modeli dayanır.**

Vaşinqton səfəri Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması və yekun sülh sazişinə aparan yolun təsbitidir. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanmış Birgə Bəyannamə Azərbaycanın diplomatik sahədə növbəti qələbəsi oldu. Bəyannamədə xarici işlər nazirləri səviyyəsində "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş"in mətni paraflanmış, imza və ratifikasiya üçün növbəti addımların atılmasının vacibliyi qeyd olunmuşdur; ATƏT-in Minsk prosesinin və əlaqəli strukturların ləğvi üçün iki ölkə tərəfindən ATƏT-in Baş katibinə birgə müraciətin təqdim olunacağı təsdiqlənmişdir; Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişin təmin olunacağı rəsmən qeyd edilmişdir ki, bu da illərdir Prezident İlham Əliyevin israrlı şəkildə tələb etdiyi Zəngəzur dəhlizinin reallığa çevrilməsidir; Ermənistanın ABŞ və üçüncü tərəflərlə əməkdaşlıq çərçivəsində kommunikasiya layihələrində iştirak niyyəti ifadə olunmuşdur; sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, qisasçı ritorikadan imtina kimi fundamental prinsiplər təsdiqlənmişdir.

Bu sənəd Azərbaycanın bütün əsas şərtlərinin Ermənistan tərəfindən qəbul edildiyini göstərir. Ermənistan konstitusiyasına dəyişiklik edilməklə ərazi iddialarının aradan qaldırılması zərurəti artıq beynəlxalq səviyyədə təsdiq olunmuş öhdəlikdir. Paraflanma hələ imza demək olmasa da, hüquqi-institusional baxımdan yekun sazişin imzalanmasına aparan son mərhələlərdən biridir.

Prezident İlham Əliyevin diplomatiyası son 22 ildə Azərbaycanın regional və qlobal mövqelərinin möhkəmlənməsini təmin edən ardıcıl, strateji və məqsədyönlü xətdir. 2020-ci il Vətən müharibəsində qazanılan qələbə ilə Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, 2023-cü ildə keçirilən 24 saatlıq antiterror tədbirləri ilə ölkə suverenliyi tam təmin edildi. Bu hərbi uğurların ardınca Prezident İlham Əliyev sülh gündəliyini irəli sürdü və bu gündəliyi davamlı şəkildə müdafiə edərək Ermənistanın onu qəbul etməsinə nail oldu.

Xüsusilə 2020-ci ildən sonra bəzi beynəlxalq dairələr Azərbaycanın inkişaf və güc yolunu kəsmək, onu diplomatik təzyiqlər və siyasi manipulyasiyalar vasitəsilə "tələyə" salmaq niyyətində idilər. Lakin reallıq əks istiqamətdə inkişaf etdi - həmin dairələrin özləri geosiyasi manevr imkanlarını itirərək təcrid vəziyyətinə düşdülər. Azərbaycan isə qətiyyətli siyasəti, çevik diplomatiyası və cənab Prezidentin uzaqgörən liderliyi sayəsində qlobal siyasi oyun masasının mərkəzində mövqeyini möhkəmləndirdi. Bu gün həmin qüvvələr həm regionda, həm də beynəlxalq səviyyədə nüfuz və təsir imkanları baxımından daha cılız və təsirsiz görünürlər. Vaşinqtonda əldə olunan razılaşmalar və formalaşan yeni regional nizam Ermənistanda və onun xaricindəki revanşist qüvvələr üçün də ciddi zərbə oldu. Ermənistanın keçmiş faşist prezidentləri - Ter-Petrosyan, Koçaryan, Sarqsyan və onlarla əlbir olan erməni lobbisi artıq "tutacaq" nöqtə tapa bilmirlər. Onların Azərbaycan əleyhinə qurduqları bütün ritorika faktlar qarşısında məhv olur. Siyasi tarixdə tez-tez deyildiyi kimi, "sonda gülən gülür" - bu dəfə qalibiyyət Azərbaycanındır.

Prezident İlham Əliyevin liderlik modeli həm hərbi-siyasi qətiyyətə, həm də sülhün qurulması prosesində yüksək siyasi səriştəyə və uzaqgörənliyə əsaslanır. Dünya sülh nəzəriyyəçilərinin araşdırmaları göstərir ki, davamlı sülh üçün tərəflərin öhdəliklərinin hüquqi-institusional mexanizmlərlə təmin edilməsi, üçüncü tərəfin şahidliyi və "uyğun məqam"ın düzgün dəyərləndirilməsi vacibdir. Cənab İlham Əliyevin təşəbbüsləri bu elmi yanaşmaların hər birinə uyğundur.

Vaşinqton formatında əldə olunan nəticələr tarixi analoqlarla müqayisə oluna bilər. Məsələn, 1978-ci ildə ABŞ Prezidenti Cimmi Karterin vasitəçiliyi ilə Misir və İsrail arasında imzalanmış Kemp-Devid Sazişi, yaxud 1995-ci il Dayton Sazişi regional münaqişələrin həllində liderlik və üçüncü tərəf zəmanətinin uğurlu nümunələridir. Prezident İlham Əliyevin sülh təşəbbüsləri bu nümunələrlə eyni tarixi çəkiyə malikdir, lakin Azərbaycanın regional geosiyasi mövqeyi və əldə olunan nəticələrin miqyası bu qələbəni daha da əlamətdar edir.

Ağ Evdə imzalanmış sənədlər regionda "sülh-təhlükəsizlik-infrastruktur" üçbucağını institusionallaşdırır. Birgə Bəyannamə ilə sülh sazişinin paraflanması, ATƏT-in Minsk qrupunun ləğvi üçün birgə müraciət və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişin təsdiqi münaqişəsonrası düzənə keçidin hüquqi sütunlarını formalaşdırır. Bu, sərhədlərin müəyyənləşməsi və kommunikasiya xətlərinin açılması ilə yanaşı, risklərin idarə olunmasına imkan verən öhdəlik - icra mexanizmlərini də gücləndirir.

Azərbaycanın enerji daşıyıcıları üzrə etibarlı təchizatçı statusu Vaşinqton formatından sonra daha geniş tranzit perspektivləri qazanır. Zəngəzur dəhlizi yalnız Naxçıvanla birləşməni deyil, həm də Şərq-Qərb ticarət axınlarının qısalmasını, yüklərin diversifikasiyasını və tranzit xərclərinin azalmasını ehtiva edir. Bu, Bakı-Tbilisi xətti ilə sinerji yaradır, dəmir yolu və avtomobil daşımalarının çevikliyini artırır, regionun logistika xəritəsində Azərbaycanın mühüm "hab" rolunu möhkəmləndirir. Enerji-nəqliyyat infrastrukturunun genişlənməsi ilə yanaşı, rəqəmsal fiber magistralların sinxron inkişafı da informasiya təhlükəsizliyi və ticarət üçün strateji üstünlük formalaşdırır.

Sülh müqaviləsinin paraflanması Azərbaycanın diplomatik səhnədə düşmənlərini tamamilə müdafiəsiz qoydu. İllərlə "Azərbaycan sabah Zəngəzuru işğal edəcək" kimi iftiralarla beynəlxalq aləmdə ölkəmizə qarşı qarayaxma kampaniyası aparanlar indi arqumentsiz qalıblar. Bu addım Azərbaycanın beynəlxalq imicini daha da möhkəmləndirdi, ölkəmizi regionun sabitlik və əməkdaşlıq mərkəzinə çevirdi. Cənab İlham Əliyevin siyasi iradəsi sayəsində təkcə sərhədlərimizdə deyil, həm də beynəlxalq diplomatiya masasındakı mövqeyimizdə sabitlik və güvənlik təmin olundu.

Strateji İşçi Qrupunun mandatında süni intellekt və rəqəmsal infrastruktur xüsusi yer tutur. Bu xətt üzrə ABŞ texnologiyasının cəlbi, məlumat mərkəzləri, bulud xidmətləri, kibertəhlükəsizlik, e-hökumət həlləri və istehsalda AI tətbiqləri üzrə çərçivə əməkdaşlığı ölkə daxilində məhsuldarlığı artırır, ixracat-əməkdaşlıq platformalarını genişləndirir. Rəqəmsal komponent sülh gündəliyinin "müsbət sülh" mərhələsinə - yəni regional qarşılıqlı asılılıq və rifahın artırılmasına keçid üçün mühüm katalizatordur.

Dəhlizin idarəçiliyinin ABŞ-ın nəzarəti altında reallaşdırılması ilə bağlı əldə olunan razılıq regiondakı kommunikasiya xəritəsini dəyişməklə bərabər, həm də Cənubi Qafqazda güc balansına yeni məzmun gətirir. Azərbaycan isə bu razılaşma ilə həm regional tranzit üstünlüyünü, həm də qlobal güclərin strateji əməkdaşlıq xəttində mərkəzi mövqeyini möhkəmləndirir.

Təhlükəsizlik sütununda silah satışları, birgə təlimlər, antiterror koordinasiyası və sərhəd nəzarəti üzrə texniki dəstək kimi istiqamətlər ölkənin müdafiə qabiliyyətini gücləndirir. Bu, sülh sazişinin icrası prosesində təxribat risklərini çəkindirən sabitlik amilidir. Azərbaycan-ABŞ xəttində artan etimad həm də beynəlxalq informasiya təhlükəsizliyi və hibrid təhdidlərə qarşı birgə davranış standartlarının formalaşmasına yardım edir.

Səfərin nəticələri qida, enerji və tədarük zəncirləri risklərinin böyüdüyü qlobal mühitdə Azərbaycanın etibarlı tərəfdaş obrazını gücləndirdi. Beləliklə, Azərbaycan diplomatiyası regional konfliktin idarə olunmasını qlobal sabitlik gündəliyi ilə əlaqələndirən nadir model təqdim edir: *hüquqi öhdəliklər + iqtisadi-rəqəmsal inteqrasiya + təhlükəsizlik sinerjisi.*

ABŞ-da əldə olunan razılaşmaların siyasi çəkisi nə qədər böyükdürsə, onların icrası bir o qədər incə, çoxlaylı idarəetmə məsələlərinin nəzərə alınmasını tələb edir. Burada risk anlayışı sadəcə təhlükələrin sadalanması deyil, sülh arxitekturasının real dünyadakı proseslərə necə tab gətirəcəyinin, hansı institusional amortizatorlar sayəsində dayanıqlılıq qazanacağının peşəkar təhlilidir. Sənədlərin təqdim etdiyi strateji çərçivə - sülh sazişinin paraflanmasından başlayaraq Zəngəzur dəhlizinin işə salınmasına, ikitərəfli ABŞ xəttində Strateji İşçi Qrupunun mandatına qədər - Azərbaycanın maraqları üçün geniş imkanlar açır. Lakin bu imkanlar yalnız doğru sekvensiyalaşdırma və ölçüləbilən icra nəzarəti ilə gerçək nəticəyə çevrilir.

Vaşinqton sənədləri anti-Azərbaycan dairələrə tutarlı cavab oldu. Prezident İlham Əliyevin ABŞ-a səfəri və imzalanmış birgə sənədlər yeni strateji mərhələnin təcəssümü, həm də Azərbaycan əleyhinə fəaliyyət göstərən qüvvələr üçün siyasi məğlubiyyətin simvoluna çevrildi. Makron və onun "tanıma" oyunu oynayan deputatları, Avropa Parlamenti, Qərb mediasının qərəzli tribunasını təşkil edən "Amnesty International" və "Human Rights Watch" kimi qurumlar, eləcə də erməni lobbi təşkilatları - ANCA, Borell, Frenk Pallone, Adam Şiff - hamısı bu reallığın fonunda nüfuz itkisinə məhkum oldular. Vaşinqton sənədləri göstərdi ki, Azərbaycanın diplomatik çəkisi onların təxribat gündəmlərindən qat-qat üstündür.

> **Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri Azərbaycanın müasir tarixində qələbə diplomatiyasının zirvəsi kimi qalacaq. Vaşinqtonda imzalanan sənədlər ölkəmizin siyasi, iqtisadi və təhlükəsizlik müstəvisində güc balansını Azərbaycanın xeyrinə möhkəmləndirdi. Bu, Prezident İlham Əliyevin formalaşdırdığı "qələbədən sülhə" strategiyasının praktiki nəticəsi olaraq, həm regional sabitlik, həm də qlobal əməkdaşlıq üçün davamlı hüquqi-institusional çərçivə yaratdı.**

Hüquqi-institusional müstəvidə ən həssas məsələ Ermənistanın daxili hüquqi transformasiyasıdır. Konstitusiyadan ərazi iddialarının çıxarılması təkcə texniki redaktə deyil, siyasi sistemin "yeni normalar"a uyğunlaşdırılması deməkdir. Bu prosesdə təqvimin gecikməsi mümkündür, lakin gecikmə sülhün mahiyyətini zədələmir - əksinə, öhdəliklərin hüquqiləşdirilməsi üçün lazımi demokratik prosedurların işlədiyini göstərir. Burada Azərbaycan tərəfinin üstünlüyü ondan ibarətdir ki, Vaşinqton formatı öhdəlikləri beynəlxalq şahidlik ilə təsbit edib. Deməli, hər bir addım geri ölçülür, hər bir fasilə isə izah olunmalıdır. İcra nəzarəti üçün ən səmərəli yol paraflanmış mətnin imza-ratifikasiya zəncirində yol xəritəsi ilə irəliləməsi, diplomatik kanalların aylıq ritmdə "vəziyyətin yoxlanması" rejimində saxlanmasıdır. Bu, sülh prosesini gündəlik siyasətin dalğalanmalarından çəkib institusional məcraya qaytarır.

Sərhədlərin delimitasiya və demarkasiyası isə texniki dəqiqliyin siyasi sabitliyə çevrildiyi sahədir. Kartoqrafik uyğunsuzluqlar, lokal insident ehtimalları və inzibati sərhəd-xəritə fərqləri müzakirənin təbii hissəsidir. Vacib olan bu müzakirələri insidentlərin qarşısının alınması mexanizmi ilə müşayiət etməkdir.

Nəhayət, təhlükəsizlik və iqtisadi dayanıqlılığın kəsişməsi. Sazişin "kağızdan həyata" mərhələsində təxribat ehtimalları sıfıra enmir, ancaq çəkindirici qabiliyyət ilə əməkdaşlıq mexanizmlərinin paralel işləməsi bu ehtimalı strateji olaraq aşağı salır. Təhlükəsizlik sütununda aparılan koordinasiya, logistika xətlərinin mühafizəsi, hibrid təhdidlərə operativ cavab - hamısı sülhün "sərt" tərəfidir. "Yumşaq" tərəf isə eyni anda işə düşən iqtisadi motivlərdir: iş yerləri, tranzit gəlirləri, texnologiya transferi. Bu iki tərəfi eyni ritmdə tutmaq liderlik texnikasıdır. Azərbaycan tərəfi Vaşinqton paketini öhdəlik-icra-şəffaflıq üçlüyü ilə müşayiət etdikcə, sülh sənədləri tarix səhifəsində qalmaq üçün yox, gündəlik həyatın funksional normalarına çevrilmək üçün lazım olan məqam qazanacaq. Bu da məhz Prezident İlham Əliyevin illərdir qurduğu sabitlik-inkişaf sintezinin praktik nəticəsidir: hərbi qələbə diplomatik reallığa, diplomatik reallıq isə idarəolunan iqtisadi və təhlükəsizlik sisteminə çevrilir.

ABŞ səfəri Azərbaycan diplomatiyasının ən yaddaqalan səhifələrindən biri kimi tarixə düşdü. Cənab İlham Əliyevin liderliyi sayəsində ölkə misli görünməmiş uğurlar ardıcıllığını strateji sabitlik mərhələsinə daşıdı. Bu nəticələr beynəlxalq sülh ədəbiyyatında vurğulanan prinsiplərlə üst-üstə düşür: "uyğun məqam"ın düzgün dəyərləndirilməsi, etibarlı öhdəliklərin hüquqiləşdirilməsi, üçüncü tərəfin şahidliyi və sülhün "mənfi" mərhələdən "müsbət" mərhələyə - yəni iqtisadi, rəqəmsal və insani inteqrasiyaya keçidi. Tarixi paralellər - Kemp-Devid və Dayton göstərir ki, qalıcı sülh güclü liderlik, aydın hüquqi sənədlər və ardıcıl icra mexanizmlərinin sintezindən doğur. Azərbaycan bu modeli Prezident İlham Əliyevin siyasi səriştəsi və strateji uzaqgörənliyi ilə Cənubi Qafqaz reallığına çevirdi.

Vaşinqtonda keçirilmiş rəsmi görüşlər və imzalanmış mühüm sənədlərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə mediasına verdiyi müsahibə, səfərin siyasi, iqtisadi və diplomatik nəticələrinin dərin məzmununu daha da aydın şəkildə ortaya qoydu. Bu müsahibə təkcə Vaşinqton danışıqlarının əsas məqamlarını işıqlandırmaqla kifayətlənmədi, həm də əldə olunmuş razılaşmaların strateji mahiyyətini, onların Azərbaycanın milli maraqları və regional geosiyasi reallıqlar kontekstində əhəmiyyətini daha da konkretləşdirdi, səfərin tarixi əhəmiyyətini analitik müstəvidə daha dolğun şəkildə nümayiş etdirdi. Cənab İlham Əliyevin müsahibəsində yer alan bəzi əsas məqamlara toxunmağı vacib bilirik.

ABŞ-la qurulan yüksəksəviyyəli münasibətlərin Azərbaycanın milli maraqlarının qorunmasında mühüm strateji amil olduğunu bildirən Prezident qeyd edib ki, Azərbaycan-Amerika münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir. Bu, Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətlərindən biri olaraq, iki ölkə arasında əməkdaşlığın yeni mərhələyə yüksəldiyini göstərir.

Azərbaycan heç vaxt Ermənistan qarşısında həyata keçirilməsi mümkün olmayan hər hansı şərtlər qoymayıb. Dövlət başçısı qeyd edib ki, irəli sürülən bütün şərtlər hüquqi və siyasi baxımdan tam əsaslı olub. Şübhəsiz, bu ardıcıllıq həm sülh prosesinə beynəlxalq dəstəyi artırır, həm də Azərbaycanın regional diplomatiyada konstruktiv oyunçu kimi tanınmasına zəmin yaradır.

Ağ Evdə imzalanan sənəd Ermənistan üçün Azərbaycanın strateji əhəmiyyətini bir daha önə çəkərək, ölkəmizin sülh və qarşılıqlı əlaqə niyyətini açıq şəkildə göstərir. Analitik müstəvidə bu, regionda kommunikasiya və logistika xəritəsinin yenidən qurulmasında Azərbaycanın mərkəzi mövqeyini təsdiqləyir. Tranzit statusunun açılması Ermənistan üçün iqtisadi diversifikasiya, yeni ticarət bazarlarına çıxış və siyasi sabitlik üçün əlavə imkanlar deməkdir. Eyni zamanda, bu proses Azərbaycanın regional enerji, nəqliyyat və informasiya-kommunikasiya infrastrukturunda həlledici aktor kimi rolunu möhkəmləndirərək, ölkəmizə uzunmüddətli geosiyasi üstünlüklər qazandırır.

Enerji sektoru Azərbaycan-ABŞ əməkdaşlığının mühüm istiqamətlərindən biri olaraq qalır və bu, Prezident Tramp ilə imzalanmış Anlaşma Memorandumunda xüsusi yer tutur. Mahiyyət etibarilə, qeyd edilmiş istiqamətdə tərəfdaşlıq Azərbaycanın enerji ixrac coğrafiyasını genişləndirir, texnoloji innovasiyaların tətbiqini sürətləndirir və qlobal enerji bazarlarında mövqelərini möhkəmləndirir. ABŞ kimi strateji tərəfdaşla birgə həyata keçiriləcək layihələr həm ölkənin enerji təhlükəsizliyini, həm də gələcəkdə "yaşıl enerji" keçidini təmin etmək üçün zəruri maliyyə və texnoloji bazanı formalaşdırır. Bu, Azərbaycanın həm regional enerji mərkəzi, həm də etibarlı beynəlxalq enerji tərəfdaşı statusunu gücləndirən əsas amillərdəndir.

Nəticə etibarilə, Vaşinqton səfəri qələbə narrativinin sülh narrativi ilə tamamlandığı, Azərbaycanın regional güc olaraq statusunu daha da möhkəmləndirdiyi mərhələdir. İmzalanmış sənədlər təkcə bugünün deyil, gələcək onilliklərin təhlükəsizliyini, iqtisadi rifahını və kommunikasiya arxitekturasını təmin edən strateji çərçivədir. Bu çərçivənin mərkəzində isə Azərbaycanın milli maraqlarını ardıcıl müdafiə edən, hərbi-diplomatik qələbələri dayanıqlı sülhə çevirən Prezident İlham Əliyevin liderlik modeli dayanır.

ABŞ səfərinin siyasi nəticələri yalnız əsas mətndə təsvir olunan proseslərlə məhdudlaşmır. Onun uğurlu icrası və davamlı təsiri üçün əlavə və texniki bölmələr də analitik baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu bölmələr səfərin diplomatik arxitekturasını, sənədlərin hüquqi anatomiyasını və informasiya idarəetməsinin keyfiyyət standartlarını göstərir.

Beləliklə, Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri Azərbaycanın müasir tarixində qələbə diplomatiyasının zirvəsi kimi qalacaq. Vaşinqtonda imzalanan sənədlər ölkəmizin siyasi, iqtisadi və təhlükəsizlik müstəvisində güc balansını Azərbaycanın xeyrinə möhkəmləndirdi. Bu, Prezident İlham Əliyevin formalaşdırdığı "qələbədən sülhə" strategiyasının praktiki nəticəsi olaraq, həm regional sabitlik, həm də qlobal əməkdaşlıq üçün davamlı hüquqi-institusional çərçivə yaratdı. Vaşinqton sənədləri sülhün hüquqi konturlarını cızır, illərdir Azərbaycan haqqında formalaşdırılmağa çalışılan qərəzli narrativlərin praktiki iflasını göstərir. Bu sənədlərin təsdiqi müxtəlif platformalarda ölkəmizə qarşı səslənən siyasi iddiaların fakt qarşısında əriyib getdiyini nümayiş etdirir və Azərbaycanın qaydalar diktə edən aktor statusunu daha nəzərəçarpacaq dərəcədə gündəmə gətirir.

Dünya sülh nəzəriyyələrinin təsdiqlədiyi kimi, davamlı barış yalnız uyğun məqamın dəyərləndirilməsi, öhdəliklərin hüquqiləşdirilməsi, üçüncü tərəfin şahidliyi və iqtisadi-sosial inteqrasiya ilə mümkündür. Prezident İlham Əliyev bu prinsipləri öz diplomatik xəttində ustalıqla birləşdirərək Azərbaycanı Cənubi Qafqazın qaydalar formalaşdıran dövlətinə çevirdi. Vaşinqton səfəri yalnız bir dövlət başçısının diplomatik uğuru deyil, bütöv bir xalqın tarixi iradəsinin, strateji səbrinin və cənab İlham Əliyevin müdrik liderliyinin təntənəsidir. Bu iradə ilə qurulan sülh Azərbaycanı gələcək onilliklərdə daha güclü, təhlükəsiz və nüfuzlu edəcək.

**Hümbət MUSAYEV.**